# ADİLİKDƏN ALİLİYƏ

*Professor Yədulla Ağazadənin 75 illik yubileyinə*



Həyatda çox dəyərli və maraqlı insanlarla qarşılaşanda onların məna dolu, məzmun dolu varlıqlarına görə Yaradana minnətdar olursan. Varlığına sevindiyim insanlar sırasında o da var. Cənubun vüqarlı oğlu, filologiya elmləri doktoru, professor Yədulla Ağazadə! O, cənubda doğulsa da, çoxdan bütöv Azərbaycanın övladına çevrilib. Respublikanın elmi ictimaiyyəti içərisində özünün xüsusi çəkisi var. Vətənin dörd bir yanına onun məhz bölgədən boylanması xüsusi qürur verir. Çünki elmi sahədə olub mikrovətəndən bütün respublikaya, dünyaya boylanmağın və tanınmağın necə çətin olduğunu hamı bilir. O isə bütün çətinlikləri özünün güclü əzmkarlığı ilə aşa bilmək qüdrətində olduğunu təsdiqləməklə sübut etdi ki, tanınmaq üçün məkan yox, intellekt, əmək və zəhmət əsasdır. Yədulla Ağazadə məhz həmin intellekt və zəhmət ünvanıdır ki, bu ünvanı tanımamaq mümkün deyil.

O, mənim auditoriyada müəllimim olmayıb. Tale elə gətirib ki, mən onu tanıyanda artıq özüm ali məktəb müəllimi olaraq onun həmkarıydım. Amma onu tanıyandan nədənsə həmişə ona müəllimim kimi yanaşmışam. Bir tələbə - müəllim münasibəti saxlamağa çalışmışam.

Yədulla Ağazadə, ilk növbədə, gözəl tədqiqatçı-alim və istedadlı ədəbiyyatşünasdır. Saysız elmi tədqiqatları, əsərləri çox ciddi alim erudisiyasının təsdiqidir.

Mükəmməl folklorşünasdır. Böyüyüb formalaşdığı cənub bölgəsinin zəngin folklor saxlancı onun bu sahədə də yetərincə dərin olmağına kömək edib.

Yaddaşlara köçərək qərarlaşmağı bacaran müəllimdir. Oxuduğu mühazirələri, keçdiyi dərsləri ilə nəsil - nəsil tələbələrinin yaddaşına yazıla bilib.

Gözəl təşkilatçılıq bacarığına malikdir. Hər zaman ona tapşırılan işə - vəzifəyə son dərəcə ciddi və yüksək məsuliyyətlə yanaşmağı bacarır. İşinə yüksək məsuliyyət hissilə yanaşma hər zaman onun fəaliyyətini şərtləndirən ən böyük amil olub.

Vətənini hüdudsuz sevgi ilə sevən və bu sevgini tələbələrinə, ətrafına ötürən vətənpərvərdir. Çünki Azərbaycanın hər qarışına tutiya kimi yanaşır. O, çox ciddi alim və ciddi insandır. Bu isə təmas zamanı əks tərəfi kifayət qədər intellektual olmağa vadar edir.

Ondan yalnız gözəl keyfiyyətləri əxz etmək, öyrənmək olar. Nə vaxtsa orta məktəbdən - adi müəllimlikdən başlanmışdı həyat yolu. Sonralarsa əziyyəti, zəhməti və intellekti sayəsində ali məqamlarda qərarlaşdı. Bu gün artıq qərarlaşdığı zirvə və o zirvədən yellənən qalibiyyət bayrağı çox şeylərdən xəbər verir. Onun əzminə yalnız qibtə etmək olar. Həyatı və fəaliyyəti boyunca bəzən haqqı tapdandı, o, mübarizəsindən çəkinib qalmadı, irəlilədi. Dəfələrlə qarşısına daşlar dığırlandırıldı, yenə usanmadı, əzmkarlıqla yoluna davam etdi. Və bu gün qalibiyyət bayrağının onun əlində olması həm də onu göstərir ki, Allah sevdiyi bəndələri həyat imtahanından hər zaman qalib çıxarır.

Yədulla müəllimin ömür səhifələrinə boylandıqca bir şey gün kimi aydın görünür: o, yaşadığı illəri ömür sürmək xatirinə yaşamayıb, hər zaman kimliyinin fərqində olub. Bu isə ucalığa gedən yolda ən vacib şərtdir.

Dəyərli Yədulla müəllim!

Doğrusu, lap bu günlərdə 75-in gəlişindən xəbər tutdum. İnanmadım, çünki illər Sizə təslimdir. Saçınıza yağan ağlar yaşınıza köçən illərdən xəbər versə də, 75 yaş vermək olmur. Qoy hər zaman illər Sizə təslim olsun! İllər üstə hakimliyi beləcə saxlamaq diləyilə...

***Şaiqə HƏMZƏQIZI***